**A Z Ə R B A Y C A N  R E S P U B L İ K A S I**

**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**

**S Ə R Ə N C A M I**

**№** 29              **"** 20 **"** 02 **2019-cu il**

**Xocalı soyqırımının iyirmi yeddinci ildönümünün keçirilməsinə dair tədbirlər planının təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Prezidentinin "Xocalı soyqırımının iyirmi yeddinci ildönümü haqqında" 05 fevral 2019-cu il tarixli, 930 nömrəli Sərəncamına müvafiq olaraq Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Rəhbərinin "Xocalı soyqırımının iyirmi yeddinci ildönümünün keçirilməsinə dair tədbirlər planının təsdiq edilməsi haqqında" 06 fevral 2019-cu il tarixli 11 nömrəli Sərəncamını, Bakı Şəhər İcra Hakimiyyətinin başçısının "Bakı şəhərində Xocalı soyqırımının iyirmi yeddinci ildönümünün keçirilməsi haqqında" 12 fevral 2019-cu il tarixli, 48 nömrəli Sərəncamını və "Yerli İcra Hakimiyyətləri haqqında" Əsasnamənin 4.1.22-ci bəndini rəhbər tutaraq

**Q ə r a r a  a l ı r a m:**

1. Binəqədi rayonunda Xocalı faciəsinin iyirmi yeddinci ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı təsdiq edilsin (əlavə olunur).
2. Rayon İcra Hakimiyyəti başçısının müavinləri, Aparatın şöbə müdirləri və müvafiq qurumların rəhbərləri tədbirlər planında nəzərdə tutulmuş məsələlərin icrası üçün təşkilati hazırlıq işlərini həyata keçirsinlər və icrasını təmin etsinlər.
3. Xocalı soyqırımının iyirmi yeddinci ildönümü ilə əlaqədar görülən işlər haqqında məlumatlar 07 mart 2019-cu il tarixədək Bakı Şəhər İcra Hakimiyyətinə təqdim edilsin.
4. Sərəncamın icrasına nəzarət Rayon İcra Hakimiyyəti başçısının müavini Aygün Əliyevaya həvalə edilsin.

**Elxan Allahverdiyev**

**ƏSLİ İLƏ DÜZDÜR:**
**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri**    **Sabir Əliyev**

29

**Binəqədi Rayon İcra Hakimiyyəti başçısının**
**“20” 02 2019-cu il tarixli 29 saylı**
**Sərəncamı ilə təsdiq edilmişdir**

**Xocalı faciəsinin iyirmi yeddinci ildönümünün keçirilməsinə dair**
**TƏDBİRLƏR PLANI**

| № | Tədbirin adı | Məsul təşkilatlar | Məsul şəxslər | İcra müddəti |
|---|---|---|---|---|
| 1. | Xətai rayonunda Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış “Ana harayı” abidəsinə təşkil edilmiş yürüşdə rayon ictimaiyyətinin iştirakının təmin edilməsi | Rayon İcra Hakimiyyəti, YAP Binəqədi rayon Təşkilatı, Binəqədi rayon Gənclər və İdman İdarəsi, rayon ərazisində faəliyyət göstərən idarə, müəssisə və təşkilatlar | İ.Süleymanov<br>A.Əliyeva<br>V.İsmayılov<br>Şöbə müdirləri | 26 fevral 2019-cu il |
| 2. | İdarə və təşkilatlarda, mədəniyyət müəssisələrində, ali, orta ümumtəhsil və məktəbəqədər təhsil müəssisələrində Xocalı soyqırımına həsr olunmuş tədbirlərin (xatirə gecələri, dəyirmi masalar, foto-rəsm sərgiləri, inşa yazı müsabiqələri, idman yarışları, şahidlərlə görüş və s.) keçirilməsi, milli azadlıq uğrunda mübarizəyə həsr olunmuş sənədli və bədii filmlərin nümayişinin təşkil edilməsi | Rayon İcra Hakimiyyəti, rayon Gənclər və İdman İdarəsi, Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, məktəbəqədər təhsil və orta ümumtəhsil müəssisələri, mədəniyyət müəssisələri | A.Əliyeva<br>N.Allahverdiyev | fevral 2019-cu il |
| 3. | 26 fevral saat:17-00-da rayon ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi | Rayon İcra Hakimiyyəti | İ.Süleymanov<br>Y.Hüseynov | 26 fevral 2019-cu il |

| | | | | |
|---|---|---|---|---|
| 4. | Goradil qəsəbəsi 2 nömrəli ETK-nin pansionatında müvəqqəti məskunlaşan xocalılarla görüşlərin keçirilməsi və şəhid ailələrinə humanitar yardımların göstərilməsi | Rayon İcra Hakimiyyəti, Binəqədi Bələdiyyəsi, Qaçqınlar və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin Binəqədi rayon sektoru | A.Əliyeva N.Allahverdiyev S.Umudov İ.Tağıyev | 23 fevral 2019-cu il |
| 5. | Xocalı soyqırımı günü ilə əlaqədar rayon ərazisində dövlət bayraqlarının endirilməsi | Rayon İcra Hakimiyyəti, Qəsəbə və sahə inzibati ərazi dairəsi üzrə nümayəndəliklər, Bələdiyyələr, Binəqədi rayon MKTB | İ.Süleymanov R.Göyüşov E.Zamanov | 26 fevral 2019-cu il |
| 6. | Rayon ərazisində fəaliyyət göstərən dini icmalar tərəfindən Xocalı soyqırımı qurbanlarının xatirəsinə həsr olunmuş anma mərasimlərinin təşkil edilməsi | Rayon İcra Hakimiyyəti, Dini icmalar | A.Əliyeva N.Allahverdiyev | fevral 2019-cu il |
| 7. | 26 fevral tarixində rayonun təhsil müəssisələrində ilk dərsin Xocalı soyqırımına həsr edilməsi | Rayon İcra Hakimiyyəti, orta ümumtəhsil müəssisələri | A.Əliyeva N.Allahverdiyev | 26 fevral 2019-cu il |
| 8. | Xocalı soyqırımının ildönümü ilə əlaqədar keçirilən tədbirlərin və görülən işlərin KİV-də işıqlandırılması | Rayon İcra Hakimiyyəti | A.Əliyeva N.Allahverdiyev | fevral 2019-cu il |

**Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini** — **Aygün Əliyeva**

**İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri** — **Nicat Allahverdiyev**